# Naxçıvanda "Qərbi Azərbaycana qayıdış"a növbəti dəstək




**Ötən il Naxçıvanda keçirilmiş "Qərbi Azərbaycana qayıdış" festival-konqresi hərəkata geniş ümumxalq dəstəyi qazandırmaqla yanaşı, yaddaşlarda unudulmaz izlər qoymuşdu. Bu il iyunun 21-22-də isə Şahbuz rayonunun Batabat yaylağında II "Qərbi Azərbaycana qayıdış" festival-konqresi keçiriləcək.**

Bu barədə jurnalistlərə açıqlama verən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, festival-konqresdə Qərbi Azərbaycanda xalqımızın uzun illər ərzində yaratdığı mədəni irs, tarixi keçmişimiz təbliğ ediləcək. Festival-konqresdə Qərbi Azərbaycana məxsus folklor nümunələri, mətbəx, musiqi və yallı nömrələri, sərgilər, ədəbi-bədii kompozisiyalar təqdim olunacaq.

Rektor bildirib ki, festival-konqres çərçivəsində iyunun 21-də qaçqın ailəsindən olan 2 gəncin toy məclisi də olacaq. Mərasim Qərbi Azərbaycanın adət-ənənəsinə uyğun keçiriləcək. Festivalda Qərbi Azərbaycan kulinariya sərgisi də təşkil ediləcək, qədim diyarın 11 mahalını canlandıran çadırlar qurulacaq.

***XQ***